# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# TİBBİ MİKROBİOLOGİYA və İMMUNOLOGİYA KAFEDRASININ İNKİŞAF STRATEGİYASI

# Tibbi Mikrobiologiya və İmmunologiya Kafedrasının İnkişaf Strategiyası



# A. Missiya və Baxış

- **Missiya**

Tibbi Mikrobiologiya və İmmunologiya sahəsində dünya standartlarına uyğun bilik və bacarıqlara yiyələnmiş tələbə, magistrant və həkim-rezidentləri yetişdirmək, dövrün və praktik səhiyyənin tələblərinə uyğun elmi tədqiqatları aparmaq və müasir beynəlxalq tələblərə uyğun keyfiyyətli səhiyyə xidmətləri göstərmək.

- **Baxış**

Təhsil və elmi sahədə mükəmməlliyə nail olmaq, Tibbi Mikrobiologiya və İmmunologiyanın tədrisində ölkənin və regionun lider strukturlarından birinə çevrilmək.

# B. Təhsil

**Keyfiyyətli tədris**

- Kafedrada tədrisin keyfiyyətinin artırılması məqsədilə müasir yanaşmalardan və təhsil metodlarından istifadə edilməsi.
- Beynəlxalq standartlara uyğun tələbə yönümlü tədrisin təşkili və tədris prosesində innovativ yanaşmaların tətbiqi.

**Müəllim və tələbələrin inkişafı**

- Professor-müəllim heyətinin beynəlxalq təlimlərdə və proqramlarda iştirakını təmin etmək, tədris keyfiyyətini artırmaq.
- Tədris və tədris-metodik vasitələrinin mütəmadi olaraq yenilənməsi və təkmilləşdirilməsi.

**Praktik təcrübənin artırılması**

- Təhsilalanların təcrübi bacarıqlara yiyələnməsi üçün müasir laboratoriya bazalarından istifadənin təmin edilməsi.
- Tədrisin müxtəlif sahələrini real praktikada təcrübə ilə əlaqələndirmək, tələbələrin laboratoriya və klinik təcrübə imkanlarını genişləndirmək.

# C. Elm

**Tədqiqat istiqaməti**

- Elmi-tədqiqat işlərinin müasir tibbin aktual problemlərinin həllinə istiqamətləndirilməsi
- Elmi tədqiqatların dünya standartlarına uyğun aparılması üçün müasir cihaz və texnologiyalarla təchiz olunmuş laboratoriyaların təşkil edilməsi

**Beynəlxalq əməkdaşlıq**

- Yerli və beynəlxalq elmi müəssisələrlə birgə elmi tədqiqatların aparılması, bu tədqiqatların nəticələrinin yüksək nüfuzlu beynəlxalq jurnallarda dərc edilməsi.
- Beynəlxalq elmi tədbirlərdə iştirak etmək və tədqiqat nəticələrini təqdim etmək

**Elmi innovasiya və təcrübə paylaşımı**

- Tədqiqatların yenilikçi və praktiki nəticələrinə əsaslanan elmi təqdimatlar və müzakirələrin təşkil olunması, həmçinin elmi nəticələrin tətbiq sahələrinə inteqrasiyası.

# D. Tərəfdaşlıq

**Beynəlxalq əməkdaşlıq**

- **Tələbə, magistrant, rezident və müəllimlərin beynəlxalq mübadilə proqramlarında iştirakını təmin etmək və təcrübə mübadiləsini genişləndirmək.**
- **Beynəlxalq elmi təşkilatlarla tədqiqatlar aparmaq, sahədəki ən son yeniliklərdən xəbərdar olmaq.**

**Tələbə və tədqiqatçı əməkdaşlığı**

- **Yerli və beynəlxalq elmi müəssisələrlə birgə elmi tədqiqatların aparılması, bu tədqiqatların nəticələrinin yüksək nüfuzlu beynəlxalq jurnallarda dərc edilməsi.**

# E. Dünya reytinqləri

| | |
|---|---|
| **Təhsil və elmi nailiyyətlər** | • Kafedrada təhsilin və elmin dünya standartlarına uyğun təşkil edilməsini təmin edərək, yüksək reytingli jurnallarda məqalə çap etdirmək və universitetin dünya reytingini qaldırmaq.<br>• Beynəlxalq elmi tədbirlərdə iştirak edərək universitetin və kafedranın nüfuzunu artırmaq. |
| **Beynəlxalq nüfuzun artırılması** | • Dünya üzrə tanınan elmi müəssisələr və tədqiqat şəbəkələri ilə əlaqələr qurmaq və inkişaf etdirmək |

# F. Cəmiyyətə və Praktik Səhiyyəyə Töhfə

**Cəmiyyətin maarifləndirilməsi**

- Cəmiyyətin infeksion patologiya sahəsində maarifləndirilməsində iştirak etmək, infeksiyaların qarşısının alınması və immunizasiya ilə bağlı təbliğat işləri aparmaq.
- Əhaliyə tibbi təhsil və səhiyyə xidməti sahəsində məlumatlar vermək, xüsusən də infeksion xəstəliklərin profilaktikası barədə.

**Mikrobioloji laboratoriyaların inkişafı**

- Müxtəlif tibb müəssisələrində mikrobioloji laboratoriyaların təşkili və təkmilləşdirilməsi, fəaliyyətin optimallaşdırılması.
- Mikrobların və infeksiyaların diaqnostikasında müasir metodların tətbiqi, keyfiyyətli tibbi xidmətin göstərilməsi.

**Pandemiya və epidemiyalarla mübarizə**

- Epidemiyaların və pandemiyaların yayılmasını qarşısını almaq üçün səhiyyə xidmətləri ilə əməkdaşlıq edərək infeksiyaların nəzarətini həyata keçirmək.
- Əhaliyə tibbi mikrobioloji yardım göstərmək və infeksiyaların müalicəsi üçün lazım olan müvafiq tədbirlərin görülməsi.